Ramazan bayramınız mübarək!

18/19 (1169) 06-19 may 2021-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

"TÜRKİYƏ-AZƏRBAYCAN DOSTLUĞU, QARDAŞLIĞI BU GÜN ƏN YÜKSƏK ZİRVƏDƏDİR"



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçının etimadnaməsini qəbul edərkən deyib.

Prezident İlham Əliyev qeyd edib ki, İkinci Qarabağ müharibəsi bütün dünyaya Türkiyə ilə Azərbaycanın bir yerdə olduğunu göstərib.

O, deyib: Müharibənin ilk saatlarından başlayaraq Türkiyə və onun Cümhurbaşqanı bizə mənəvi və siyasi dəstək vermişdir. Bu mənəvi və siyasi dəstək müharibənin son gününə qədər göstərildi. İkinci Qarabağ müharibəsində Qələbəmiz əlbəttə ki, bölgədə yeni bir reallıq yaratdı. Türkiyə və Azərbaycan bölgədə öz imkanlarını genişləndirdilər, bizim rolumuz, təsir imkanlarımız artdı və artacaq. Birgə həyata keçirdiyimiz bütün layihələr, təşəbbüslər bölgədə sabitliyin, sülhün təmin edilməsi üçün önəmli rol oynayır. Əlaqələrimizin təməlində xalqlarımızın qardaşlığı və liderlərin siyasi iradəsi dayanır. Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bundan sonra da bütün məsələlərdə bir-birini dəstəkləyəcək, bütün məsələlərdə bir-birinin yanında olacaq və öz əməli işləri, addımları ilə yaşadığımız bölgədə sülhün bərqərar olmasında səylərini davam etdirəcəklər.

AZƏRBAYCAN-LİTVA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİ, REGİONAL TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNUB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Litva Respublikasının Xarici İşlər naziri Qabrielius Landsbergisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan-Litva ikitərəfli münasibətləri, regional təhlükəsizlik məsələləri müzakirə olunub. Dövlətimizin başçısı 30 ilə yaxın müddətdə Ermənistanın Azərbaycan torpaqlarının işğalı və postmüharibə dövründə yaranmış vəziyyətlə bağlı ölkəmizin mövqeyini çatdırıb.

Söhbət zamanı Azərbaycan Respublikası-Avropa İttifaqı əməkdaşlığı məsələləri müzakirə edilib və Azərbaycan Respublikası-Avropa İttifaqı arasında yeni saziş layihəsi üzrə danışıqların tezliklə yekunlaşacağına ümidvarlıq ifadə olunub.

İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİ ÜÇÜN AZƏRBAYCANDA YAXŞI MÜHİT VAR

Aprelin 28-də Dünya İqtisadi Forumunun prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forumun prezidenti Borge Brende ilə videokonfrans formatında görüşü olub.

Görüşdə ölkəmizlə Dünya İqtisadi Forumu arasında uzunmüddətli səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilib, bu əməkdaşlıq çərçivəsində Azərbaycanın Dünya İqtisadi Forumunun bir sıra təşəbbüslərində fəal iştirak etdiyi qeyd olunub. Vurğulanıb ki, Azərbaycan ilə Dünya İqtisadi Forumu ölkəmizdə qeyri-neft sektorunun inkişafı sahəsində də uğurla əməkdaşlıq edir.

Prezident İlham Əliyev Borge Brendeyə işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən infrastruktur layihələri, investisiyaların cəlb olunması barədə məlumat verib. Dövlətimizin başçısı bildirib ki, həmin ərazilərdə yenidənqurma prosesi gedir, qarşıda nəhəng iş durur və böyük bir ərazi tamamilə yenidən qurulacaq.

Bildirilib ki, indi səylərin əsas istiqaməti ərazilərin yenidən qurulması olacaq və bu, həmçinin ölkə iqtisadiyyatının qeyri-enerji sektoruna, xüsusilə tikinti sahəsinə təkan verəcək. İki gün əvvəl "ağıllı kənd" konsepsiyası ilə yenidən qurulacaq kəndlərin təməlinin qoyulduğunu vurğulayan dövlətimizin başçısı işğaldan azad edilmiş əraziləri "yaşıl zona" elan etdiyini, həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyasından istifadə olunacağını, şəhərlər üçün baş planların hazırlandığını, enerji istehsalı, elektrik enerjisi, avtomagistrallar, dəmir yolları, hava limanları ilə bağlı infrastruktur layihələrinin həyata keçirildiyini deyib və bu sahədə Dünya İqtisadi Forumu ilə əməkdaşlığın perspektivlərinə toxunub. Söhbət zamanı Azərbaycanda pandemiya ilə mübarizə sahəsində görülən tədbirlər də qeyd edilib, son günlərdə ölkədə sağalanların sayının artması müsbət amil kimi qiymətləndirilib.

Görüşdə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri şəbəkəsinin afilə edilmiş Azərbaycan Mərkəzinin fəaliyyəti vurğulanıb. Bildirilib ki, bu mərkəzin əsası 2020-ci ildə Davosda Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin niyyət məktubunu imzalaması ilə qoyulub.

İnvestisiyaların cəlb edilməsi üçün ölkəmizdə yaxşı mühitin olduğunu deyən Borge Brende azərbaycanlı gənclərin çox mükəmməl olduqlarını vurğulayıb və onların Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi işinə töhfə verəcəklərinə əminliyini bildirib.

TAP boru kəməri ilə nəqletmə 42 faiz artıb

Bu barədə boru kəmərinin operatoru TAP AG şirkəti məlumat yayıb.

Bildirilir ki, aprel ayında TAP-la marta nisbətən 42 faiz daha çox təbii qaz nəql olunub. Belə ki, martda nəqletmə 4565 GWh olduğu halda, apreldə bu göstərici 6477 GWh təşkil edib.

Xatırladaq ki, 2020-ci ilin dekabr ayında TAP-la kommersiya qaz nəqlinə başlandığı vaxtdan ötən müddət ərzində boru kəməri ilə Azərbaycan qazı Yunanıstanın Kipoi bölgəsindəki qaz stansiyasından Avropaya nəql olunur. Artıq 1 milyard kubmetr qazın təhlükəsiz şəkildə nəql edilməsi TAP infrastrukturunun bir çox bazarda şaxələndirilməsinə imkan yaradıb. TAP-ın çatdırdığı qaz həcmləri Avropa İttifaqı üçün yeni etibarlı, təhlükəsiz və sərfəli enerjini mənbəyi təmin etməklə yanaşı, enerji yol xəritəsini asanlaşdırmaqda əsas rol oynayır.

Üç ötürücü sistem operatoru – TAP AG, "Snam Rete Gas" və "DESFA" davam edən bazar sınaqları üzrə məcburi təklif mərhələsinin 2021-ci ilin iyul ayında baş tutacağını elan edib. Hər 3 operator son bazar şərtlərini nəzərə alaraq, enerji bazarlarının bərpa olunmasına daha çox vaxt ayırmaq istəyir. TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

Qeyd edək ki, TAP Cənub Qaz Dəhlizinin Avropa qolu, Azərbaycandan Avropa bazarlarına 10 milyard kubmetr yeni qaz tədarükünü həyata keçirəcək qovşaq layihəsidir. TAP sistemi keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə beynəlxalq standartlara uyğun fəaliyyət göstərir. Kəmərin potensialı onun ötürücülük gücünü iki dəfə artıraraq ildə 20 milyard kubmetrə çatdırmağa imkan verir.

Şuşaya yeni magistral su kəməri çəkiləcək

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Şuşa şəhərinin dayanıqlı içməli su təchizatının təmin olunması məqsədilə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən təxirəsalınmaz tədbirlərin icrasına başlanılıb. Bu tədbirlər mövcud su təchizatı sistemlərinin stabil fəaliyyətinin təmin edilməsi və digər həyati əhəmiyyətli infrastruktur layihələrinin icrası çərçivəsində həyata keçirilir.

ASC-dən bildirilib ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahından verilən məlumata görə, Şuşa şəhərini dayanıqlı içməli su ilə təmin etmək üçün Təxirəsalınmaz Tədbirlər Proqramı hazırlanıb və icrasına başlanılıb. Tədbirlər Planına əsasən, Şuşa şəhərini içməli su ilə təmin edən Kiçik Kirs və Zarıslı suqəbuledici qurğularında yenidənqurma işləri aparılacaq. Kiçik Kirs mənbəyindən Şuşaya yeni magistral su kəməri çəkiləcək, şəhər ərazisində 6 km paylayıcı su xətti, hər birinin tutumu 500 kubmetr olan 3 ədəd su anbarı inşa olunacaq.

Bu tədbirlər çərçivəsində ilkin olaraq tikintisi davam edən Füzuli-Şuşa avtomagistralının, eləcə də elektrik stansiyasının ərazisindən keçən və uzun illərdir istismar olunan magistral kəmərin yenilənməsi işlərinə başlanılıb. Bu məqsədlə Şuşa şəhərinin yaxınlığındakı suqəbuledici kameradan şəhərdəki anbara qədər polad borularla 1,8 kilometr uzunluğunda yeni magistral su kəməri çəkilir.

Kəmərin inşasında istifadə olunacaq maşın-mexanizmlərin, polad boruların və digər mal-materialların Şuşa şəhərinə daşınması təmin edilib. Hazırda tikinti-quraşdırma işləri Laçın-Şuşa avtomagistralının trassası boyunca davam etdirilir.

Qeyd edək ki, yeni magistralın inşası ilə yanaşı şəhərdaxili şəbəkədə də tənzimləmə işləri aparılır və baş verə biləcək qəzaların aradan qaldırılması üçün "Azərsu" ASC tərəfindən şəhərdə fasiləsiz xidmət təşkil edilib.

Şuşa şəhərinin yeni Baş Planına uyğun olaraq şəhərin içməli su və tullantı su şəbəkələri yenidən qurulacaq, içməli və tullantı sutəmizləyici qurğular inşa ediləcək.

BMT İnkişaf Proqramı işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinə dəstək göstərəcək

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa işlərinin həyata keçirilməsi prosesinə BMT İnkişaf Proqramı (UNDP) dəstək göstərəcək.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nazir Mikayıl Cabbarov BMT İnkişaf Proqramının Azərbaycan Respublikasındakı rezident nümayəndəsi Alessandro Frakassetti ilə görüşüb.

M.Cabbarov Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə səmərəli əməkdaşlıq etdiyini, bir sıra sənədlərin imzalandığını və birgə layihələrin həyata keçirildiyini diqqətə çatdırıb. Bu il martın 1-də BMT və Azərbaycan Hökuməti arasında 2021-2025-ci illər üçün

Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi imzalandığını xatırladan iqtisadiyyat naziri sənədin ölkəmizdə aparılan sosial-iqtisadi islahatlara, milli prioritetlərə uyğun inkişaf hədəflərinə nail olmağa və Davamlı İnkişaf Məqsədlərinin (DİM) icrasına töhfə verəcəyini bildirib.

Görüşdə pandemiyanın iqtisadiyyata mənfi təsirlərinin aradan qaldırılması məqsədilə Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər barədə məlumat verilib, UNDP-nin bu istiqamətdə dəstəyinin yüksək qiymətləndirildiyi vurğulanıb.

A.Frakassetti təmsil etdiyi qurumun ölkəmizlə bir sıra sahələr üzrə səmərəli əməkdaşlığını diqqətə çatdırıb, işğaldan azad edilmiş ərazilərimizdə bərpa işlərinin həyata keçirilməsi prosesinə UNDP tərəfindən dəstək göstərilməsinin planlaşdırıldığını bildirib.

Görüşdə pandemiyanın mənfi təsirlərinin aradan qaldırılması tədbirləri, DİM-ə nail olmaq istiqamətində görülən işlər və sair məsələlər müzakirə olunub.

Neft Fondunun Şimali Amerika və Asiya-Sakit Okean ölkələrinə investisiyaları artıb

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) Şimali Amerika və Asiya-Sakit Okean ölkələrinə investisiyaları artırıb.

AZƏRTAC Neft Fondunun 2021-ci ilin ilk rübü üzrə investisiya fəaliyyətinin yekunlarına dair hesabatına istinadla xəbər verir ki, bu il aprelin 1-nə ARDNF-nin investisiya portfelinin coğrafi regionlar üzrə təsnifatında 25,89 faizi Şimali Amerika ölkələri təşkil edib. Ötən ilin sonuna olan məlumata görə isə fondun coğrafi regionlar üzrə təsnifatında 24,96 faizi Şimali Amerika təşkil edirdi.

Müqayisə olunan dövrdə Dövlət Neft Fondunun Asiya-Sakit Okean ölkələrinə investisiyaları da artıb. Belə ki, cari ilin birinci rübünün sonuna Neft Fondunun investisiya portfelinin coğrafi regionlar üzrə təsnifatında bu ölkələrə investisiyalarla bağlı göstərici keçən ilin sonuna nisbətən 23,48 faizdən 23,8 faizə yüksəlib.

Bu müddətdə fondun Avropaya investisiyaları üzrə göstərici 29,26 faizdən 29 faizə enib.

Rəqəmsal iqtisadi mühitdə təhlil və özünəməxsusluqların genezisi

İnformasiya cəmiyyətinin üstünlüklərinin və iqtisadiyyatın innovasiya potensialının reallaşdırılması rəqəmsal texnologiyaların geniş arealda və fəal tətbiqi sayəsində mümkün olur. Artıq rəqəmsal iqtisadiyyat anlayışı elmi publisistikadan elmi dövriyyəyə keçmiş və onun mahiyyətinin açıqlanmasına aşkar ehtiyac vardır. Rəqəmsal texnologiyaların sosial-iqtisadi münasibətlərə təsiri özünü kifayət qədər əyani surətdə göstərsə də, onların qiymətləndirilməsinin metodiki və informasiya problemləri, hələ ki, öz həllini gözləyir.

Rəqəmsal iqtisadiyyat anlayışına yanaşmaların müxtəlifliyi gözlənilən olsa da, onun meydana gəlməsindən keçən dövr ərzində həmin fərqlərin azalmaması arzuedilən deyildir. Son onilliklərdə elmi dövriyyəyə elmi publisistikadan daxil olan "anlayışların" artması da bu məsələdə az əhəmiyyət kəsb etmir. İnnovasiya iqtisadiyyatı, informasiya iqtisadiyyatı, yeni iqtisadiyyat, rəqəmsal iqtisadiyyat və bu kimi digər anlayışların bir çox hallarda eyni mənada işlənməsi də onların elmi dövriyyəyə təklif edilməsinə baxmayaraq, məhz elmi publisistikada populyarlaşdırılmasının nəticəsidir. Digər səbəb iqtisadiyyat anlayışının genişliyində, onun iqtisadi həyat kimi sinonimlərinin mövcudluğudur.

Niyə rəqəmsal iqtisadiyyat?

Rəqəmsal iqtisadiyyat anlayışının dəqiqləşdirilməsinə təcrübi yanaşmalara gəldikdə isə onları fərqləndirmək olar. Rəqəmsal iqtisadiyyat dar mənada qəbul edildikdə, yəni rəqəmsal texnologiyalara əsaslandıqda, o, yalnız elektron mal və xidmətləri (deyək ki, distant təhsil, teletəbabət, qlobal şəbəkələrdə göstərilən ənənəvi xidmətlər və s.) əhatə edir. Rəqəmsal iqtisadiyyat geniş mənada götürüldükdə rəqəm texnologiyalarının tətbiq edildiyi iqtisadi fəaliyyətləri əhatə edir. Bu halda rəqəmsal iqtisadiyyatı mövcud (hazırda mövcud iqtisadiyyatı ənənəvi, analoq, artım iqtisadiyyatı və s. adlandırırlar) iqtisadiyyatın informasiya-kommunikasiya texnologiyaları ilə əhatə olunan hissəsi kimi də təqdim edirlər. Formallaşan, yəni əhəmiyyətli dərəcədə məntiqi sxemlərə çevrilə bilən iqtisadi fəaliyyətlərin rəqəmsal iqtisadiyyata aid edilməsi cəhdləri də vardır və zənnimizcə, bununla yalnız bəzi qeyd-şərtlərlə razılaşmaq olar.

Qlobal şəbəkələrin bütün planeti əhatə etməsi, informasiyanın inkişafın əsas və məqbul şəraitdə tükənməyən resursuna çevrilməsi müasir dövrün reallığıdır. Rəqəmsal iqtisadiyyat və internet iqtisadiyyatının sinonim kimi işlədilməsi də təsadüfi deyildir. Məsələ ondadır ki, hər iki halda fəaliyyətin səmərəliliyi rəqəmsal (şəbəkə) texnologiyalarının malik olduğu üstünlükləri reallaşdırmaqla əldə edilir. Unutmaq olmaz ki, virtual iqtisadi mühitin mərkəzi məkanı olan, istehsalçı ilə istehlakçının qarşılaşdığı "virtual bazar" da şəbəkə imkanlarından yararlanmaqla fəaliyyət göstərir. Bu bazarda malın axtarışı və seçilməsi, alğı-satqı, ödəmələrin vaxtında həyata keçirilməsi, konyunkturun monitorinqi kompüter şəbəkələri vasitəsilə, süni intellekt elementlərindən istifadə edilməklə həyata keçirilir.

İnternetin ictimai həyatın bütün sahələrinə nüfuz etməsi təkcə onun faydalılığı ilə deyil, bu şəbəkədə insanlarda erkən yaş dövrlərində asılılıq yarada bilən üsul və vasitələrdən uzun müddət nəzarətsiz istifadə edilə bilməsi ilə əlaqədar olmuşdur. Əyləncə və biznes maraqlarını qorumaqla, istər-istəməz istehlakçı cəmiyyətə xas meyilləri təşviq edən informasiya rəngarəngliyinin şəxsi təması əvəzləməsi adi istifadəçilər üçün gözlənilməz olmuşdur. Haqqında danışılan informasiya kaleydeskopunun şəxsi təması birgəyaşayışın mənəvi əsasları üçün təhlükə yaradacaq həddə əvəzləməsi isə gələcəkdə arzuolunmaz meyillərə rəvac vermişdir.

Rəqəmsal iqtisadiyyatda təhlil

Rəqəmsal iqtisadiyyatın inkişafı əlverişli rəqəmsal mühitin yaradılmasını tələb edir. Həmin mühit isə digər fəaliyyət istiqamətləri ilə yanaşı, dövlət-özəl bölmə tərəfdaşlığının dəstəklənməsini, ümumiyyətlə, dövlət strukturları, əhali və biznes subyektləri arasında səmərəli münasibətlərin qurulmasını nəzərdə tutmalıdır. İqtisadi münasibətlər sisteminin digər sektorlarına nisbətən rəqəmsal iqtisadiyyatda dövlət amilinin xüsusilə vurğulanması təsadüfi deyildir. Məsələ ondadır ki, rəqəmsal texnologiyaların tətbiqi arealını genişləndirmək imkanlarını, inkişaf etmiş ölkələrin təcrübəsindən göründüyü kimi, məhz dövlətin fəal iştirakı ilə gerçəkləşdirmək mümkün olur.

Təşəkkül mərhələsində olan rəqəmsal iqtisadiyyatın mövcud vəziyyətinin təhlili üçün özünəməxsus metodiki baza formalaşır. Doğrudur, həmin bazanın formalaşması sürəti arzuolunan deyildir. Bunun ilkin səbəblərindən biri rəqəmsal iqtisadiyyatın nəzəri-metodoloji bazasının formalaşmasının praktikadan geri qalmasıdır. Digər səbəb müvafiq verilənlər bazasının ənənəvi iqtisadiyyatın ənənəvi sektorlarına dair verilənlər bazaları ilə birgəliyinin təmin edilməsindəki ləngimələrdir. Daha dəqiq desək, həmin birgəliyin təmin edilməsi üzrə işlərin sürəti, rəqəmsal texnologiyaların iqtisadiyyatın bu və ya digər ənənəvi sektoruna nüfuz etməsi tempindən geri qalır. Nəticədə rəqəmsal iqtisadiyyatın verilənlər bazasının iqtisadiyyatın ənənəvi sektorlarına dair verilənlər bazaları ilə birgəliyinin təmin edilməsi istiqamətində görülməli işlər tamamlana bilmir.

Rəqəmsal iqtisadiyyatın təhlili məqsədilə əksər hallarda dörd qiymətləndirmə meyarından istifadə edilir: məşğulluq, məkan, texnoloji, iqtisadi. Rəqəmsal iqtisadiyyatın səmərəliliyinin məşğulluq meyarı ilə qiymətləndirilməsinə əsaslanan yanaşmada rəqəmsal texnologiyaların məşğulluğun səviyyəsi və strukturuna təsiri araşdırılır. Məkan meyarı üzrə qiymətləndirmə konkret halda rəqəmsal iqtisadiyyatın ərazi (coğrafi) xarakteristikaları təhlilə cəlb edilməklə aparılır. Rəqəmsal iqtisadiyyatın təhlili məqsədi ilə istifadə edilən texnoloji meyar üzrə informasiya-kommunikasiya texnologiyaları sahəsində innovasiyaların geniş istifadəçi kütləsi üçün əlyetənliyi qiymətləndirilir. Rəqəmsal texnologiyaların inkişafının qiymətləndirilməsinin iqtisadi meyarına gəldikdə isə, bu halda səmərəlilik ilkin yanaşmada məsrəf-buraxılış modeli üzrə müəyyən edilə bilər.

Müvafiq elmi təminatın hazırki vəziyyətində rəqəmsal iqtisadiyyatın inkişafını kəmiyyətcə qiymətləndirmək üçün birmənalı qəbul edilən indikatorlar sistemi olmasa da, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən tövsiyə olunan indikatorlar sisteminin təcrübədə tətbiqi məqbul hesab edilir. Həmin indikatorlar aşağıdakı istiqamətləri xarakterizə edir: iqtisadiyyatın yüksək texnoloji sahələrinin inkişafı, onun emal sənayesi məhsulları və xidmətlərində xüsusi çəkisi; elmi işləmələrə, proqram təminatının yaradılmasına, təhsilə və əlavə yenidən hazırlığa investisiyalar; informasiya-kommunikasiya avadanlıqlarının işlənib hazırlanması və buraxılışı; elm və yüksək texnologiyalar sahəsində yeni iş yerlərinin yaradılması və i.a.

Rəqəmsal mühit məhsulun istehlak dəyərinin artması istiqamətində həyata keçirilən tədbirlərə məsrəfləri azaltdıqca istehlak modellərinin dayanıqlığı artır. Bu baxımdan müvafiq mənbələrdə göstərildiyi kimi, dördüncü sənaye inqilabı daha davamlı istehlak nümunələrinə keçməklə aşağı qiymətlərlə istehlakın daha dayanıqlı modellərinə keçidi təmin edir ki, bu da öz növbəsində daha məsuliyyətli istehlaka səbəb olur.

Rəqəmsal məhsullar və xidmətlər bazarında vəziyyətin təhlili əməyin xarakterində baş verən dəyişikliklərə adekvat terminoloji dəqiqləşdirmələr tələb edir. Bu baxımdan, rəqəmsal iqtisadiyyatda "informasiya əməyi" anlayışı dəqiqləşdirilməlidir. "İnformasiya əməyi"nin, böyük ehtimalla fiziki və zehni əməyin arasında yer alan anlayış olduğunu söyləmək olar. Onu da qeyd edək ki, məşğulluğun strukturunda "informasiya əməyinin" fiziki əməyi əvəzləməsi tempinin davamlı surətdə yüksəlməsi rəqəmsal iqtisadiyyatda xidmət sahəsinin xüsusi çəkisinin artmasının əsas səbəblərindən biridir.

Rəqəmsal potensialın reallaşdırılmasının texnoloji imkanlarının iqtisadi səmərəliliyin dinamikasına təsiri birmənalı qiymətləndirilə bilən amil deyildir. Bununla belə, dinamikanın vektorunun təyin edilməsi və dəyişikliklərin kəmiyyətcə qiymətləndirilməsi - həll perspektivləri tamamilə fərqli olan məsələlərdir. Belə ki, birinci halda dinamikanın müsbət olub-olmadığını müəyyən etmək mümkün olsa da, onun kəmiyyət ifadəsini müəyyən etmək, hələ ki, zəruri dəqiqiliklə mümkün deyildir. Bununla belə, məhz rəqəmsal potensialın qiymətləndirilməsi istiqamətindəki tədqiqatların intensivləşməsinə artan diqqət başa düşüləndir. Məsələ ondadır ki, iqtisadi fəaliyyətin təşkilinin səmərəliliyi, rentabelliyi və məhsulun bazar perspektivləri müəssisənin (şirkətin) rəqəmsal potensialından bilavasitə asılıdır. Get-gedə inkişafın rəqəmsal potensialının maliyyə resursları, xammal təchizatı, təsərrüfatçılıqda tərəf-müqabillərlə münasibətlər qədər vacib, bəzən isə onlardan üstün olduğu üzə çıxır.

Rəqəmsal iqtisadiyyatın reallaşmasının əhatə dairəsi görünməmiş sürətlə genişlənir və demək olar ki, iqtisadi fəaliyyətin bütün sahələrinə müxtəlif templərlə nüfuz edir. Bununla belə, gözlənildiyi kimi, artan sırada elektron biznes və internet bankçılıq inkişaf tempinə görə irəlidədir. Başqa sözlə, rəqəmsal iqtisadiyyatın reallaşdığı sahələr ildən-ilə artır və hazırda daha çox inkişaf edən sahələrə aşağıdakıları aid etmək olar: elektron biznes, internet bankçılıq, sosial sahələr, təhsil, telekommunikasiya, informasiya sistemləri, sənaye.

Rəqəmsal iqtisadiyyatın özünəməxsusluqlarının müəyyən edilməsi onun bu və ya digər məkan və zamanda start vəziyyətinin qiymətləndirilməsini, onu şərtləndirən amillərin səciyyələndirilməsini tələb edir. Doğrudur, rəqəmli iqtisadi fəaliyyətlərin yayılması və inkişafının sürəti həmin qiymətləndirmə proseslərinə çevik və eyni zamanda, kompleks yanaşma tələb edir. Əks halda informasiya axınlarının güclənməsi fonunda qarşıya çıxan çətinliklər daha çox qeyri-müəyyənlik yarada bilər. **(ardı var)**

Rəsul Balayev,
iqtisad üzrə elmlər doktoru,
Azərbaycan Dövlət İqtisad Universitetinin
"Rəqəmsal texnologiyalar və tətbiqi informatika" kafedrasının professoru

FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏDƏN 76 İL ÖTÜR

Böyük Vətən müharibəsi insanları elə mətin, elə dözümlü, həm də elə doğma və yaxın etmişdi ki, hər kəs öz cismani varlığını unudub başqa bir aləmə düşmüşdü. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" quru bir şüar deyildi. Qələbə uğrunda, azadlıq idealları uğrunda ehtirasla coşub-daşan milyonların ürək çırpıntıları idi.

Müharibə ilə bağlı canlı sənədləri nəzərdən keçirdikcə bu fikir bir daha öz təsdiqini tapır. Saysız-hesabsız rəsmi teleqramlar, yazışmalar, əmək zəfərləri, cəbhə xəbərləri, əsgər məktubları, tənqidlər, təriflər, təltiflər, daha nələr, nələr...

QABAQCIL BRİQADALAR

Cəbrayıl rayonunda Mayqabağı yarışa qoşulan kolxozlar və traktor briqadaları öhdələrinə götürdükləri vəzifələri şərəflə yerinə yetirirlər. «Şərq», «Parlaq» kolxozları və Xoze Dias, Kirov, Voroşilov adına kolxozlar pambıq səpini planını yerinə yetirmişlər. Telman adına kolxozda işləyən 1 nömrəli traktor briqadası (briqada Cəfər Abbasov) 95 hektar əvəzinə 100 hektar əkmişdir. 6-cı briqadada işləyən traktorçu Alışan Hüseynov gündə 14-15 hektar sahəyə toxum səpir.

Molotov adına kolxozda çalışan 4 nömrəli traktor briqadası öz tapşırıqlarını yüksək keyfiyyətlə yerinə yetirir. Bu briqadada işləyən traktorçu Mehdi Ağayev hər gün 16-18 hektar sahəyə toxum səpir. Mehdiyev

Kommunist, № 86, 30 aprel 1942-ci il

İdarə işindən – istehsalda işləməyə keçmişik

Yırtıcı faşizm bizim azad əməyimizi, xoşbəxt həyatımızı pozmaq üçün quldurcasına, qəflətən vətənimizə hücum etmişdir. Sovet hökuməti düşməni torpağımızdan qovmaq, onu öz ərazilərində əzmək üçün qəhrəman Qızıl Ordumuza sərəncam vermişdir. Eyni zamanda hökumətimiz Molotov yoldaşın dili ilə xalqımıza «Qızıl Ordu və bütün xalqımız yenə vətən uğrunda, namus uğrunda, azadlıq uğrunda qalibiyyətli vətən müharibəsi edəcəkdir». Biz idarə işçiləri dəzgah arxasında işləməyə keçmişik. Zavodun müdriyyəti bizim xahişimizi yerinə yetirmiş və dəzgahda işləməyimizi təmin etmişdir. Biz hamımız işlədiymiz dəzgahların və sahib olacağımız sənətin texnikasını ən qısa müddətdə öyrənməyi öhdəmizə salmışıq. Biz eyni zamanda şəfqət bacılığını öyrənmək üçün dərnəklərə də yazılmışıq ki, sabah lazım olsa, cəbhəyə də gedə bilək.

Biz bu məktubu yazmaqla komsomolçu və komsomolda olmayan bütün qadın və qızlara bir daha xatırlatmaq istəyirik ki, partiya və hökumətimizin çağırışı ilə bütün xalqımız azğın faşizmə qarşı vətən müharibəsinə qalxmışdır. Xalqımızın təxminən yarısını təşkil edən qadın və qızlarımız bu müharibədə iştirak etməyə bilməz. Qanovist Klavdiya Nikolayevna, Reynin Valnentinina, Sidrova Tamara Timofeyevna, L.Şmidt adına zavodun idarə və kantorlarında işləmiş, indi isə istehsalata gedən komsomolçu qızlar.

«Kommunist»,
25 iyun 1941-ci il,
№149 (6284)

«Lazım olan qədər neft verək»

Neft mədənlərində, maşınqayırma, neft emalı zavodlarında və başqa müəssisələrdə, idarə və elmi təşkilatlarda fəhlələr, qulluqçular və ziyalılar yekdilliklə Sovet hökumətinin siyasətini bəyənir, doğma Vətənin müdafiəsinə qalxmağa hazır olduqlarını bildirirlər.

Stalin adına zavodun neftçiləri mitinqdə Molotov yoldaşın radio ilə çıxışına qulaq asmışlar. Operatov Xəlilov demişdir ki, Qızıl Ordu və Hərbi-Dəniz Donanmasını yanacaqla təmin etmək üçün var qüvvə ilə çalışmaq lazımdır. Qoy bizim təyyarəçilər və tankçılar arxayın olsunlar ki, yanacaq və yağları həmişə olacaqdır.

Qəzəblə, lakin böyük vətənpərvərlik hissilə danışan köhnə neftçi Mazurov demişdir ki, oz oğlunu Qızıl Ordu sıralarına göndərir və lazım olarsa, özü də cəbhəyə getməyə hazırdır.

«Pravda»,
23 iyun 1941-ci il

CƏBHƏYƏ VƏ ÖLKƏYƏ DAHA ÇOX TAXIL VERƏK!

Azərbaycan SSR XKS və Azərbaycan K(b) P MK, «1943-cü ildə dənli bitkiləri biçmək, döymək və məhsulunu tədarük etmək haqqında»kı qərarda bütün rayon təşkilatlarının və kolxoz idarə heyətlərinin rəhbərlərindən, tədarük təşkilatları işçilərindən tələb etmişlər ki, taxılı vaxtında və itkisiz biçib döysünlər... ölkəni, Qızıl Ordunu kifayət qədər taxıl ilə təmin etsinlər...

Keçən il respublikamızın bir çox kolxozları və kolxozçuları taxılı vaxtında yığaraq dövlət qarşısında öz öhdəliklərini yerinə yetirdilər. Respublikada taxıl tədarükü planı tamamilə ödənildi. Bundan başqa kolxozçular və kolxozçu qadınlar öz ehtiyatlarından Qızıl Ordu fonduna çoxlu taxıl verdilər.

Azərbaycan SSR XKS və Azərbaycan K(b) P MK göstərmişlər ki, kənd təsərrüfatı sahəsində əsas işləri vaxtında görmək, taxılın yığılmasına və döyülməsinə hazırlıq aparmaq, yığımı və döyümü yaxşı keçirmək, dövlət qarşısında yerinə yetirmək, ölkəni və Qızıl Ordunu kifayət qədər taxıl ilə təmin etmək üçün bütün qüvvəni səfərbərliyə almaq kənd kommunistlərinin və komsomolçularının, kolxozçuların və kolxozçu qadınların, MTS və sovxoz işçilərinin ən mühüm və şərəfli vəzifəsidir. Q.A. Süleymanov, SSRİ Xalq Tədarük Komissarlığının Azərbaycan SSR müvəkkili.

Kommunist,
20 iyun, 1943-cü il, №128



Hər biri sanki dil açıb danışır, bizləri o müdhiş illərə çəkib aparır. Bir dərdli, bir sərli, bir amallı insan talelərinin qovduğu məkana.

Böyük Vətən müharibəsinin gedişində ön və arxa cəbhə ilə bağlı bütün ciddi və təxirəsalınmaz məsələlər rəsmi məktublar və teleqramlar vasitəsilə öz həllini tapırdı. Bunlar yeganə kommunikasiya vasitəsi idi. SSRİ Dövlət Müdafiə Komitəsindən, ayrı-ayrı Xalq Komissarlıqlarından Azərbaycan rəhbərliyinə daxil olan teleqramlarda cəbhənin ehtiyacı üçün tələb olunan hər bir əmr qeyd-şərtsiz yerinə yetirilməli idi. Hər bir teleqram sanki bütöv millətə, xalqa, topluma ünvanlanmış, hər bir vətəndaşın çiyinlərinə ağır yük qoyan, son bəndinədək yerinə yetirilməsi qaçılmaz olan müqəddəs anda çağırışa çevrilmişdi. Nə Xəzərin şıltaqlığını, nə avadanlığın köhnəlib sıradan çıxdığını, nə işçi qüvvəsinin çatışmadığını sifarişlərin icra olunması üçün səbəb gətirmək mümkün idi. Kiçicik bir səhv, səhlənkarlıq cəbhədə ağır itkilərə yol aça bilərdi. Ümid yeri, nicat yolu dilsiz-ağızsız bu teleqramlar və bir də ki, onu alıb oxuyanların vicdanı, şərəfi, məsuliyyəti idi. Sonda şərəf, vicdan və ləyaqət qalib gəldi!

Bu ümmana baş vurduqca, xalqımızın hünər və qeyrət etalonuna çevrilən fədakarlığını və şücaətini gördükcə riqqətdən insanın qəlbi döyünür, fəxr edirsən, qürur duyursan ki, faşizm kimi ölüm kabusunun yer üzündən silinib atılmasında Azərbaycan xalqının misilsiz payı və zəhməti vardır. Respublikamız cəbhəni fasiləsiz neft və neft məhsulları, gündəlik tələbat malları, məişət əşyaları ilə təchiz etməklə yanaşı, 700 mindən çox övladını savaşa yola saldı, onların 320 min nəfərdən çoxu hərb meydanlarında həlak oldular, itkin düşdülər.

Nicat yolu: dilsiz-ağızsız teleqramlar, dövri mətbuatda dərc olunan yazılardan:

"Pravda" qəzeti Azərbaycan neftçilərinin fədakar əməyini yüksək qiymətləndirir, bu barədə vaxtaşırı yazılar dərc edirdi. Müharibənin ilk günlərində "Pravda" qəzetində "Lazım olan qədər neft verək" sərlövhəli məqalə dərc olunmuşdu...

CƏBHƏYƏ NEFT

Mədənimizin neftçiləri Bakı-Donbas sosializm yarışında fəal iştirak edərək 11 aylıq neftçıxarma planını vaxtından 10 gün qabaq 102,1 faiz yerinə yetirmişdir. İstehsal edilən neftin maya dəyəri 2 faiz aşağı salınmışdır.

Neftçıxarma briqadaları arasında Bakı-Donbas sosializm yarışı sürətlə genişlənir. Usta Əliağa Məmmədovun briqadası hamıdan irəlidə gedir. Briqada dekabrın 5-də tapşırığı 165 faiz yerinə yetirmişdir. Staxanovçu Əbdil Babayev də həmin günün tapşırığını 162 faiz yerinə yetirmişdir. Gənc geoloq Ənvər Əlixanovun təşəbbüsü ilə az neft verən, dayanan quyulardan 40-da görülən tədbir nəticəsində neft hasilatı 40 ton artmışdır. Quyulardan əvvəllər gündə 3-5 ton neft çıxarılırdı. Geoloq Əlixanovun yaxından köməyilə bu quyuların tıxacı yuyulmuş və boruları dəyişdirilmişdir. İndi quyuların hər biri gündə 15-16 ton neft verir.

Ömər Abdulin,
Leninneft tresti 7-ci mədənin müdiri
"Kommunist", 4 dekabr 1944-ci il, № 241

YENİ QƏLƏBƏLƏR UĞRUNDA

Molotov rayonunun zəhmətkeşləri yaxşı başa düşürlər ki, düşmən üzərində tam qələbə qazanmaq üçün döyüş texnikasını yüksək keyfiyyətli yanacaqla təmin etmək lazımdır. Buna görə də Molotov rayonunun zəhmətkeşləri Lenin rayonu neftçilərinin vətənpərvərlik təşəbbüsünə qoşulmuşdu. «Molotovneft» trestinin fəhlələri, mühəndis-texniki işçiləri və qulluqçuları əmək cəbhəsində daha böyük səylə işləməyə və Sovet Azərbaycanının şanlı 25 illiyini yeni istehsalat qələbələri ilə qarşılamağa söz verirlər.

Biz bu vəzifələri öhdəmizə götürürük:

1. Neft və qaz çıxarmaq sahəsində 4 aylıq planı vaxtından qabaq yerinə yetirmək və 1945-ci il aprelin 28-dək plandan əlavə 800 ton neft və 1000 ton qaz çıxarmaq. Dayanan quyuları işə salmaqla işləyən quyular sırasına daha 32 quyu əlavə etmək... Çıxarılan hər ton neft və qazın maya dəyərini 1,5 faiz aşağı salmaq. Kəşfiyyat və istismar qazması haqqında 4 aylıq planı aprelin 28-də yerinə yetirmək, 4 quyunu işə salmaq. İstismar qazmasının sürətini ayda 400 metrədək, kəşfiyyat qazımasının sürətini isə 250 metrədək artırmaq... Aprelin 28-dək 175 traktorçu, qazımaçı, neftçıxarma operatoru və yeraltı təmir işçisi hazırlamaq və 175 fəhlənin ixtisasını artırmaq. Təşkilati-texniki tədbirlər görməklə 200 000 kilovat-saat elektrik qüvvəsinə qənaət etmək... Bu tədbirlər Molotov rayonunun mədənləri, qazıma idarəsi və bütün yardımçı müəssisələrin işçilərinin yığıncaqlarında müzakirə edilib qəbul olunmuşdur.

Trestin müdiri N.Babayev, rayon partiya komitəsinin katibi. Q.Baburov, baş mühəndis X.Quliyev, baş geoloq A.Əliyev, mədən müdirlərindən: A.Abdullayev, M.Rəsulzadə, K.Eyvazov staxanovçulardan A.Hacımüslüm, M.Mehbalıyev, X.Əlibəyov və başqaları.

Zəfər tariximiz və qürur mənbəyimiz...

2020-ci ilin 12 iyulunda xain, əlləri qana bulaşmış ermənilərin Ermənistan-Azərbaycan dövlət sərhəddinin Tovuz istiqamətində Ağdam kəndini artilleriya atəşinə tutmaları nəticəsində əsgərlərimiz, zabitlərimiz və mülki şəxslərimiz həlak oldular. Çoxlu sayda evlər, obyektlər, infrastrukturlar dağıdıldı. Hərbçilərimiz mənfur düşmənə layiqli cavabını verdi. Düşmən bir addımda irəliləyə bilmədi, ərazi bütövlüyümüz qorundu. Tovuz hadisələri vaxtı biz yaxşı bilirdik ki, ermənilər təxribat törətməklə Azərbaycan ərazilərində yeni işğal siyasəti həyata keçirmək niyyətindədirlər.

Erməni millətçiləri tərəfindən uzun dövrdən bəri azərbaycanlıların və onların yaşadıqları ərazilərin, maddi-mədəni və tarixi abidələrin təcavüzə məruz qalmasının 200 ilə yaxın tarixi vardır. "Böyük Ermənistan" dövləti yaratmaq üçün millətçi və şovinist siyasət yeridərək, dinc əhalini qəddarlıqla məhv etmiş, soydaşlarımızı torpaqlarımızdan qovmuş, ərazilərimizi işğal etmişlər. Faktlar göstərir ki, 1828-ci ilədək Azərbaycanın tarixi əraziləri 300min km2 təşkil edirdi. 1828-ci ildə Rusiyanın tərkibinə daxil olanda Şimali Azərbaycan ərazisi 130 min km2 idi. Erməni havadarlarının köməyi ilə İran ərazisindən ermənilərin köçürülməsi nəticəsində 114min km2 təşkil etdi. 1918-ci ilin mart ayında Azərbaycan ərazisində Ararat Respublikası, daha sonra Ermənistan Respublikası yaradıldı. 1905 və 1918-ci illərdə Azərbaycan əhalisi qorxuduldu, qovuldu, vəhşiliklər və faciələr törədildi. Tacavüzkar erməni millətçilərinin havadarlarının təhriki ilə 1990-cı ildə 86,6 min km2 ərazimiz qalmışdı. Dağlıq Qarabağın və yeddi rayonun Ermənistana birləşdirilməsi məqsədilə 1990-1994-cü illərdə erməni ordusu hərbi təcavüzə keçərək, mövcud ərazilərimizin 20%-ni işğal etdilər. Təcavüz nəticəsində on minlərlə insan həlak oldu, çoxlu sayda soydaşlarımız əsir götürüldü, bir milyona yaxın azərbaycanlı 30 ilə yaxın bir dövrdə qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. 200 mindən çox soydaşımız Ermənistandan yalnız türk-müsəlman olduqları üçün vəhşicəsinə qovuldular. Ermənilərin işğal etdikləri ərazilərdə yaşayan azərbaycanlılar ölkəmizin 60-dan çox rayonunda çətin vəziyyətdə yaşamağa məcbur edildilər.

Yenədə 4aprel 2016-cı il tarixində ermənilər təmas xəttini keçməyə cəhd etdilər və şanlı ordumuz tərəfindən ciddi cavablarını aldılar. Buna baxmayaraq, 27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələri norma və qaydaları pozaraq, yenidən ərazi iddiasına düşərək, bir neçə istiqamətdən Azərbaycanın yaşayış məntəqələrini və hərbi obyektləri atəşə tutdular. Nəticədə mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar oldu. Erməni baş nazirinin işğal etdikləri torpaqlarımıza- Şuşaya gəlməsi, Cıdır düzündə yallı getməsi, qədim məskənimiz olan Şuşanı Qarabağın paytaxtı edəcəyini söyləməsi azəri türklərinin mənliyinə, qüruruna toxundu, bizi coşdurdu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin siyasi iradəsi sayəsində 27 sentyabr 2020-ci ildə uzun illər Ermənistanın işğal altında saxladığı torpaqlarımızı azad etmək üçün Azərbaycan Ordusu antiterror əməliyyatları apararaq, əks hücuma keçdi.

Məlum həqiqətdir ki, 30 il ərzində Dağlıq Qarabağ həqiqətləri barədə məlumatlar Azərbaycan tərəfindən beynalxalq ictimaiyyətə çatdırılsada, əməli tədbirlər görülmürdü, ikili yanaşmalar mövcud idi. Bu müddətdə demokratiyadan danışan dövlətlər Azərbaycan torpaqlarının 20%-dən çoxunun ermənilərin tapdağında qalmasına münasibət göstərmir, onlara qarşı sanksiyalar tətbiq etmirdi. Atəşkəs dövründə düşmənin təxribatlara əl atmasına, dinc əhalini hədəfə almasına göz yumulurdu.

Birinci Vətən müharibəsində - 1990-1993-cü illərdə Azərbaycanın qərbində, Tovuz rayonunda, o cümlədən doğulub boya-başa çatdığım Əlibəyli kəndində müxtəlif silahlardan atəş açılır, ağır döyüşlər gedirdi. Erməni quldurları, azğınlaşmış vəhşilər kəndi atəşə tutur, evləri dağıdır, dinc əhalini öldürürdülər. O vaxtlar nizami ordu olmadığı üçün kəndin və rayonun könüllü özünümüdafiə dəstələri kəndlərimizi erməni təcavüzündən mərdliklə qoruyurdular. Həmin vaxtlarda qeyrətli igid oğullarımızın şücaətlərindən qəzetlərdə məqalələr yazır, Bakıda yaşasamda, tez-tez onlara müəyyən sovqatlarla baş çəkirdim. Düz 30 il Tovuz rayonu (elə Ermənistanla sərhəd rayonlar da) atəş altında saxlanılmış, uzun müddət düşmən öz məkrli xislətini davam etdirmişdir.

Qarabağ münaqişəsinin həlli üç dövlətin - Amerika, Rusiya, Fransanın səlahiyyətlərinə verilərək,ATƏT-in Minsk qrupu yaradılsada, 28 ildə münaqişənin həllinə heç bir kömək göstərmədilər. Bütün bunları qeyd etməkdə məqsədim ondan ibarətdir ki, 30 ildə Minsk qrupunun mahiyyətinin, Ermənistanın münaqişəni həll etmək istəyinin, işğalçılığa son qoymamasının pərdəarxası görüntülərinin nədən ibarət olduğunu 44 günlük Vətən müharibəsi göstərdi: 27 sentyabrdan 9 noyabra qədər ermənilər hansı əxlaqın, hansı düşüncə və mənəviyyatın sahibi olduqlarını çox aydın göstərdilər. Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Tovuz rayonlarının, Gəncə və Mingəçevir şəhərlərinin çoxlu sayda günahsız, dinc əhalisini öldürdülər, yaraladılar. Minlərlə yaşayış evləri, çoxlu sayda mülki obyektlər dağıdıldı.Xocalı soyqırımını törədən və heç bir beynəlxalq təşkilat tərəfindən cəzalandırılmayan, heç bir sanksiyalar tətbiq edilməyən Ermənistan daha ciddi, əxlaqa və insanlığa sığmayan cinayətlər törətdi. Hindistandan İrana gətirilmiş qaraçıların 400 il ərzində farslarla qarışığından əmələ gəlmiş bu murdar, hay-küyçü, əxlaqsız ermənilər heç bir hərbi obyekt olmayan və dinc əhali yaşayan Gəncə, Bərdə və Tərtərdə yeni soyqırımı törətdilər.

Müharibə dövründə ölkə prezidenti dünyanın 30-a yaxın media qurumlarına müsahibə verdi. Bu informasiyalar real həqiqətləri beynalxalq səviyyədə insanlara çatdırmaqda çox böyük rol oynadı. Prezident çox haqlı olaraq qeyd edir ki, "Biz bu qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etdik." Həm də qürurverici 44 günün anlarını yaşadıq, "Qəhrəman əsgər və zabitlərimizin hesabına qələbə qazandıq", 30 illik Qarabağ münaqişəsinə son qoyduq. Prezident haqlı olaraq göstərir ki, "Biz bu torpaqlara Azərbaycan xalqının şücaəti hesabına qayıtmışıq". Mən böyük fəxrlə qeyd etmək istəyirəm ki, ölkəmizin uğurlu diplomatiya siyasəti və xalq-iqtidar birliyi ölkəmizə qələbə qazandırdı. Bu qələbənin əsasında güclü iqtisadiyyatımız durur. Təsadüfi deyilmir ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Xalq-iqtidar birliyi və güclü iqtisadiyyat və ondan da güclü mənəvi dayaq qələbəmizin təmin olunmasına imkan verdi. Prezident İlham Əliyevin hər çıxışı, işğaldan azad olunan şəhər və kəndlərimizə, şəhidlərimizə sonsuz məhəbbət, əsgər və zabitlərimizə həssas münasibət 30 illik yaralı qəlbimizə məlhəm oldu, bizi qələbələrə ruhlandırdı. Vətən müharibəsi Azərbaycan əsgərinin qüdrətini, qorxmazlığını, igidliyini ortaya çıxardı.

Qarabağ uğrunda apardığımzVətən müharibəsindəqardaş Türkiyə Cümhuriyyəti və 83 milyonluq xalq Azərbaycana çox böyük siyasi və mənəvi dəstək oldu, bizim haqq işimizdə bizimlə birlikdə oldular. Mənəvi dəstəyə və haqq işimizə dəstəyə görə Türkiyə, Ukrayna, İsrail, Pakistan, Gürcüstan, İslam Əməkdaşlıq Təşkilatının bir çox üzvlərinə minnətdarlığımı bildirirəm.

Rayonlarımız, kəndlərimiz işğaldan azad olunduqca sevinclər aşıb-daşır, böyük coşqu ilə şənliklər, zəfər yürüşləri keçirilir, şanlı əsgər və zabitlərimizin, Ali Baş Komandanın şərəfinə qürurverici ifadələrlə hədsiz sevinclər ifadə edilirdi. O günlər qəlbimin fəxarət, sevincli günləri idi və bəlkədə ömrümün ən xoşbəxt 44 günü idi. Həm də ona görə sevinirdik ki, uzun müddət işğal altında qalmış, talan edilmiş rayon və kəndlərin hər biri işğaldan azad edildi. Onların hamısı digər rayonlarımız kimi gözəlliklər məskənidir, tarixi abidələr, böyük sərvətlər diyarıdır, biz onların sahibi kimi o yerlərə dönəcəyik.

Böyük iftixar hissi ilə qeyd etmək istəyirəm ki, insanlarımızın çox böyük səbri, vətənpərvərliyi, milli birliyi, ölkə rəhbərliyinin siyasi iradəsi və məharəti nəticəsində biz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdik, yüzilliklər boyu insanlar və xalqlar arasında nifrət və düşmənçilik təbliğ edən erməni millətçilərinin iç üzlərini açdıq, onların terror və işğal əməllərinin ifşasına nail olduq. Ali Baş Komandanın rəhbərliyi, şanlı ordumuzun rəşadəti və şücaəti nəticəsində işğala, ədalətsizliyə son qoyuldu. Lakin illər keçsə də, erməni vəhşilərinin dinc əhaliyə qarşı törətdikləri amansızlıqlar, müsibətlər yaddaşdan çıxmayacaqdır.

Uzun müddət nazirlikdə rəhbər vəzifələrdə işləmişəm. Sonra professor olduğum üçün ali təhsil müəssisəsində kafedraya rəhbərlik etmiş, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuş, minlərlə gəncə dərs demişəm. Ömrüm boyu insanlarla yaxın münasibətdə olmuş, ölkəmizin bütün rayonlarını gəzmişəm. Yaxşı bilirəm ki, vətənpərlik ruhu, vətənə, torpağa, insanlara məhəbbət, sevgi ana bətnində, ailədə, məktəbdə, ali təhsil ocaqlarında, sosial-ictimai yerlərdəformalaşır. Bəzən gənclik yaşlarımda böyüyə, kiçiyə, insana gördüyüm diqqəti, qayğını indiki, müasir gənclərdə görməyəndə məyus olur, gələcəyə nikbin baxa bilmirdim. Gənclərin təhsilə soyuq münasibəti, telefonla, kompüterlə vaxt keçirmələri məni sıxırdı. Bəzən yaşlı insanların yanında olanda, bu bədbinliyi onlardan duyanda pis olurdum. Sən demə, gənclərin məşğuliyyətində, münasibətində vətənpərvərliyin, torpağa, insanlara məhəbbətin çox dərin kökləri varmış. Belə olmasaydı Vətən müharibəsində bu gənclər nümunə göstərə bilməzdilər, şirin canlarını vətən, torpaq və insan üçün qurban verməzdilər. 44 günlük zəfər tariximizi özümüz yazmaqla hansı igidliklər göstərildiyi barədə qürurverici hadisələri fəxrlə dinləyə bilməzdik, şahidi olmazdıq. Eşq olsun sizlərə, vətənini, torpağını, bayrağını, dostunu, yoldaşını canından, qanından əziz bilən, igid övladlarımıza.

Əsgərlərimizin, zabitlərimizin ayaqları dəyən yerlərdə gül-çiçək açacaqdır. Vətənimizin azadlığı, bütövlüyü uğrunda canından-qanından keçən şəhidlərimizin qanı tökülən yerləri cənnət məkana çevirəcəyik, onların adı qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır. Biz bütün şəhidlik zirvəsinə ucalan, tarix yazan oğul və qızlarımızın qarşısında həyatımızla, varlığımızla borcluyuq. Milli birliyimiz, ölkə rəhbərliyinin, Ali Baş Komandanın iradəsi və müzəffər ordumuzun qazandığı tarixi qələbəni qiymətləndirərək, qarşıdakı dövrdə əsas amalımızın istiqaməti milləti gələcək hədəflər üçün kökləməkdən ibarət olmalıdır.

Sinəsində üçrəngli bayraq döyüş meydanına cəsarətlə atılan, qazi kimi ailəsinə, elinə-obasına dönən, igid Azərbaycan əsgərləri, Sizə tərbiyə verən ata və analar, biz Sizinlə fəxr edirik. Deyirəm ki, nə yaxşı ki, sizin kimi övladlarımız vardır və siz 30 illik ədalətsizliyə son qoydunuz, bizim Qarabağ boyda problemlərimizin həlli uşaqlarımıza, nəvələrimizə saxlanılmadı.

İBRAHİMOV İSLAM HACI oğlu,
iqtisad elmləri doktoru, professor,
Əməkdar kənd təsərrüfatı işçisi,
Azərbaycan Yazıçılar Birliyinin üzvü

Azərbaycan İtaliyaya qaz nəqlini iki dəfə artırıb

Birinci rüb ərzində TAP kəməri ilə Azərbaycan qazının İtaliyaya nəqli iki dəfədən artıq - sutkada orta hesabla 9,5 milyon kubmetrdən 20 milyon kubmetrdən çox artıb.

Bu barədə İtaliyanın "Snam" qaz nəqli operatoru məlumat verib.

Apreldə LPG terminallarından daxil olan qazın 1,346 milyard kubmetrini istifadə edib, bu da 2020-ci ilin iyul ayından etibarən ən yüksək göstəricidir. Bu barədə "Gas Infrastructure Europe" məlumat verir.

TANAP ilə Azərbaycanın kommersiya qazının Türkiyənin qərb hissəsinə nəqli 2018-ci ilin üçüncü rübündə başlanıb.

"Şahdəniz" yatağından hasil olunan Azərbaycan qazının TAP ilə Avropaya nəqlinə 2020-ci il dekabrın 31-də başlanılıb.

TAP-ın ümumi uzunluğu 878 km təşkil edir, bunun 550 km-i Yunanıstanın şimal hissəsindən, 215 km-i Albaniyadan, 105 km-i Adriatik dənizindən, 8 km-i isə İtaliya ərazisindən keçir.

TAP layihəsi "Mərhələ-2" çərçivəsində "Şahdəniz" yatağından hasil edilən 10 milyard kubmetr təbii qazın Yunanıstan və Albaniyadan Qərbi Avropaya nəqlini nəzərdə tutur. Qaz kəmərinin ötürmə qabiliyyəti onun gücünü ildə 20 milyard kubmetrə qədər artırmağa imkan verir.

2021-ci ildə CQD ilə Azərbaycandan Avropaya 5 milyard kubmetrdən çox qaz nəql olunacaq.

Bakının ticarət dövriyyəsi artıb

Yanvar-mart aylarında Bakının ticarət dövriyyəsi 2020-ci ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz artaraq 5 milyard 366,7 milyon manat olub.

AZƏRTAC Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumata istinadla xəbər verir ki, ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,3 faiz artaraq 2 milyard 749,7 milyon manat, qeyri-ərzaq məhsullarının həcmi isə 8 faiz azalaraq 2 milyard 617 milyon manat təşkil edib.

İstehlak məhsullarının 35,2 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 48 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 16,8 faizi isə paytaxtın məhsul bazarlarında satılıb.

Cari ildə Neft Fondunun "Şahdəniz" üzrə gəliri 42,3 milyon dollar olub

Yanvar-aprel aylarında Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) "Şahdəniz" yatağı üzrə təbii qaz və kondensat satışından əldə etdiyi gəlir 42 milyon 352 min ABŞ dolları olub.

Bu barədə ARDNF-nin İctimaiyyətlə əlaqələr departamentindən bildirilib.

Xatırladaq ki, 2020-ci ildə Neft Fondunun "Şahdəniz" qazı və kondensatının satışından gəliri 293,9 milyon dollar təşkil edib.

ABŞ şirkətləri ilə İKT sahəsində əməkdaşlıq imkanları müzakirə olunub

"ABŞ şirkətləri ilə İKT sahəsində əməkdaşlıq imkanlarını, xüsusilə də Azərbaycanda elmi tədqiqat mərkəzlərinin yaradılması perspektivlərini müzakirə etdik".

Bu sözləri Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Rəşad Nəbiyev deyib.

"ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerlə görüş keçirdik. Əqli mülkiyyət hüquqlarına, kibertəhlükəsizliyə, innovasiyalara dair fikir mübadiləsi apardıq", - deyə nazir bildirib.

Vergi Xidmətinin Tədris Mərkəzi Beynəlxalq Bankla memorandum imzalayıb

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi ilə Azərbaycan Beynəlxalq Bankı arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumu tədris mərkəzinin rəisi vəzifəsini icra edən Mirəli Kazımov və Azərbaycan Beynəlxalq Bankının Korporativ biznes üzrə Baş direktoru Nərgizxanım Biləndərli imzalayıb.

Vergi Xidmətinin Media və kommunikasiya idarəsindən AZƏRTAC-a bildirilib ki, memorandumun əsas məqsədi bankın sahibkar müştərilərinin iqtisadiyyat, hüquq, maliyyə, mühasibat uçotu və vergi qanunvericiliyi üzrə ixtisas biliklərinin yüksəldilməsidir.

Müxtəlif aktual mövzular üzrə birgə elmi tədqiqatların, məlumat mübadiləsinin aparılması, tədbirlərin, innovativ layihələrin həyata keçirilməsi, regional və beynəlxalq əlaqələrin qurulmasına nail olmaqdan ötrü mövcud imkanlardan birgə istifadə də sənədin məqsədlərinə daxildir.

Bankın yaratdığı və iş adamlarının işgüzar əməkdaşlıq platforması olan Sahibkarlar Klubunun üzvləri üçün vergi sahəsində müxtəlif təlimlər elmi-praktik konfranslar, seminar, dəyirmi masa və digər tədbirlər keçiriləcək, tədris-metodiki vəsaitlər hazırlanacaq.

İnnovasiyalar Agentliyi ilə KOICA-nın əməkdaşlığı davam edir

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) Azərbaycanda innovasiya potensialının istiqamətləndirilməsi və gücləndirilməsində yaxından iştirak edir.

İnnovasiyalar Agentliyindən bildirilib ki, mayın 4-də agentlikdə KOICA-nın Azərbaycan nümayəndəliyinin iştirakı ilə növbəti görüş keçirilib. 2019-cu ildən etibarən həyata keçirilən əməkdaşlıq çərçivəsində koreyalı mütəxəssislər Azərbaycanda milli ekosistemin cari statusuna dair ilkin sorğular təşkil etmiş və ilk mərhələdə əldə edilən nəticələrin əsasında əməkdaşlıq yeni müstəviyə keçid almaqdadır.

Belə ki, innovasiyalar sahəsində Strateji Yol Xəritəsinin hazırlanması istiqamətində prioritetlərin müəyyən olunması, strukturun formalaşdırılması, Yüksək Texnologiyalar Parkı, "FinTech", "AgroTech", "BioTech" və digər texnoloji fondların fəaliyyəti üzrə müvafiq metodoloji təkliflərin hazırlanması, yerli dövlət və özəl sektor təmsilçilərinin bilik və bacarıqların artırılması, biliyin idarə edilməsi və birgə pilot layihənin həyata keçirilməsi ikinci mərhələnin əsas fəaliyyət istiqamətləridir.

Tərəflər arasında geniş vüsət alan əməkdaşlıq Azərbaycanın inkişaf etməkdə olan ekosistemi və onun əsas oyunçuları üçün yeni imkanlar açaraq bu sahəyə özünəməxsus töhfə verəcək.

"Vatsap"ın yeni versiyası şəxsi məlumatlarınızı oğurlayır

Bu günlərdə "Vatsap Pink" adlı "Vatsap"ın yeni bir versiyası ortaya çıxıb və populyarlıq qazanmağa başlayıb. "Vatsap Pink" tam zərərli bir tətbiqdir. Bu zərərverici APK link şəklində "Vatsap" qruplar vasitəsilə yayılmaqdadır.

AZƏRTAC xəbər verir ki, bu barədə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzinin açıqlamasında bildirilir.

Məlumatda, həmçinin qeyd edilir ki, "Vatsap Pink" əvvəlcə qeydiyyat məlumatlarınızı soruşur və bundan sonra şəxsi məlumatlarınızı oğurlayır.

"Bakı Şampan Şərabları" ASC-nin 31 dekabr 2020-ci il tarixinə BALANS HESABATI

	MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT	31.12.2020	31.12.2019
Bölmə	Maddələrin adı		
60	Əsas əməliyyat gəliri		160822
70	Satışın maya dəyəri		109984
	Ümumi mənfəət		50837
61	Sair əməliyyat gəlirləri	156816	134480
71	Kommersiya xərcləri	5310	15159
72	İnzibati xərclər	59453	12028
73	Sair əməliyyat xərcləri	169447	150772
62 və 74	Fəaliyyətin dayan. mənfəət (zərər)		
	Əməliyyat mənfəəti (zərəri)	-77394	7358
63	Maliyyə gəliri		
75	Maliyyə xərcləri		
81	Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay		
	Vergi qoyulmadan əvvəl mənfəət (zərər)	-77394	7358
90	**Mənfəət vergisi**		1324
	Adi fəaliyyətdən mənfəət (zərər)	-77394	6034
64 və 76	Fövqəladə mənfəət (zərər)		
80	Hesabat dövründə mənfəət (zərər)	-77394	6034
	Hər səhm üzrə mənfəət		
	Azaldılmış hər bir səhm üzrə mənfəət		
	Pul vəsaitlərinin hərəkəti haqqında hesabat		
	Göstəricilər	**31.12.2020**	**31.12.2019**
	Əməliyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti		
	Hesabat dövründə xalis mənfəət (zərər)		6034
	Aşağıdakı maddələr üzrə düzəlişlər:		
	azlıq təşkil edən mülkiyyətçilərin payı		
	fövqəladə gəlirlər və xərclər		2270
	mənfəət vergisi üzrə xərclər		16300
	Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər:		
	ehtiyatlar	-2363	-392123
	ehtiyat debitor borcları (gəl. döv. xərcləri)	-91018	-21412
	əməliyyat kreditor borcları və hesablaş.	143213	450750
	əməliyyat fəaliy. aid fövqəl pul vəsait. hərəkəti		
	Ödənilmiş (qaytarılmış) mənfəət vergisi		3393
	Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti	49832	65212
	Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti		
	Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği	-856	-13509
	İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri		
	Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı	48976	856

		31.12.2020	31.12.2019
Bölmə	**AKTİVLƏR**		
1	Uzunmüddətli aktivlər		
10	Qeyri-maddi aktivlər	27500	27500
11	Torpaq, tikili və avadanlıqlar	4910784	4990954
12	Daşınmaz əmlaka investisiyalar		
13	Bioloji aktivlər	72362	72362
14	Təbii sərvətlər		
15	İştirak payı metodu ilə uçota alınan investisiyalar		
16	Təxirə salınmış vergi aktivləri	8781	8781
17	Uzunmüddətli debitor borcları		
18	Sair uzunmüddətli maliyyə aktivləri		
19	Sair uzunmüddətli aktivlər		
	Cəmi uzunmüddətli aktivlər	**5019427**	**5099597**
2	**Qısamüddətli aktivlər**		
20	Ehtiyatlar	2013385	2011022
21	Qısamüddətli debitor borcları	271613	176289
22	Pul vəsaitləri və onların ekvivalenti	48976	856
23	Sair qısamüddətli maliyyə aktivləri		
24	Sair qısamüddətli aktivlər	113860	118186
	Cəmi qısamüddətli aktivlər	**2447833**	**2306353**
	CƏMİ AKTİVLƏR	**7467260**	**7405950**
	Kapital və öhdəliklər		
3	Kapital		
30	Ödənilən nominal (nizamnamə) kapitalı	6768718	6768718
31	Emissiya gəliri		
32	Geri alınmış kapital (səhmlər)		
33	Kapital ehtiyatları		
34	Bölüşdürülməmiş mənfəət (zərər)	-54993	22401
	CƏMİ KAPİTAL	**6713725**	**6791119**
4	Uzunmüddətli öhdəliklər		
	Cəmi uzunmüddətli öhdəliklər		
5	Qısamüddətli öhdəliklər		
50	Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər		
51	Qısamüddətli qiymətləndirilmiş öhdəliklər		
52	Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər	86796	
53	Qısamüddətli kreditor borclar	666734	614825
54	Sair qısamüddətli öhdəliklər		
	Cəmi qısamüddətli öhdəliklər	**753530**	**614825**
	CƏMİ ÖHDƏLİKLƏR	**753530**	**614825**
	CƏMİ KAPİTAL ÖHDƏLİKLƏRİ	**7467255**	**7405945**

"S.L.S AUDİT-CONSULTİNG XİDMƏTİ" MMC

Baku, Azerbaijan, Babak ave. 95, apt. 122; mobile: (+99450) 394-66-02
xaladdin-aliyev@mail.ru VÖEN;1603088981
İCAZƏ A/T 213; 02 sentyabr 2020-ci il

«Bakı Şampan Şərabları » Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və Rəhbərliyinə

auditorun hesabatı

Rəy

Mən "Bakı Şampan Şərabları" ASC-nin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

Rəy üçün əsaslar

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının " Etika məcəlləsinin" (İESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

Direktorun nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatımda təsvir edirəm.

Hesabat 15.02.2021-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri "**Bakı Şampan Şərabları " ASC–nin** rəhbərliyinə təqdim edilir, ikincisi isə auditor təşkilatında saxlanılır.

"S.L.S Audit-Consulting Xidməti"MMC
direktor- auditor: **X.C.Əliyev**

M.Y

15 fevral 2021-ci il

Mərkəzi Bankın valyuta ehtiyatları 6,3 milyard dollardır

Azərbaycan Mərkəzi Bankının (AMB) sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi açıqlanıb.

AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, AMB-nin valyuta ehtiyatları mayın 1-nə 6 milyard 367,6 milyon ABŞ dolları olub. Bu göstərici ötən ayın eyni dövrü ilə müqayisədə 11,4 milyon dollar çoxdur.

İmkansız tələbələrin təhsil haqqını dövlət ödəyəcək

Nazirlər Kabineti sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə Qərara dəyişiklik edib.

Nazirlər Kabinetindən "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" qərara verilən izahda qeyd edilib ki, koronavirus (COVID-19)" pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" Qərarı qəbul edilib. Qərara əsasən təhsil müəssisələrində sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020-ci ildə tədris semestrləri (yarımilləri) üçün təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilib.

Qeyd olunanları nəzərə alaraq 2020/2021-ci tədris ilinin yaz semestri (yarımili) üzrə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan və ödənişli təhsil alan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı qəbul olunub.

ƏDV-nin artım tempi qeyri-neft ÜDM-ni 4%-dən çox üstələyib

Qeyri-neft-qaz sektorunda ƏDV, aksiz, topraq, mədən və mənfəət vergisinin artım templəri qeyri-neft ÜDM-nin nominal artım tempini 4,9 faiz üstələyib.

Banker.az xəbər verir ki, Qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının strukturunda ƏDV-nin xüsusi çəkisi 35,2 faizə, mənfəət vergisi üzrə 29,1 faizə, gəlir vergisi üzrə 18,1 faizə, aksizlər üzrə 6,2 faizə qalxıb.

Ötən ilin eyni dövrü ilə müqayisədə daxilolmalarda ən yüksək artım templəri rabitə sahəsində (41,5 faiz), sənaye sektorunda (23,1 faiz), xidmət sektorunda (15,7 faiz), ticarət sahəsində (2,5 faiz), digər fəaliyyət sahələrində (6,6 faiz) qeydə alınıb.

Özəl bankların kredit qoyuluşunda payı azalıb

2021-ci ilin aprel ayının 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu 14 mlrd. 728 mln. manat təşkil edib.

Banker.az bu barədə Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir.

Ötən ilin eyni dövründə isə kredit qoyuluşu 15 mlrd. 637 mln. manat olub ki, bu da illik müqayisədə kredit qoyuluşundan 6% azdır.

Kredit qoyuluşunun 11 mlrd. 527 mln. manatı və yaxud 79.3%-i özəl bankların payına düşüb. Özəl bankların kredit qoyuluşundakı payı isə 80.7%-dən 79.3%-ə enib.

Hesabat tarixinə dövlət banklarının kredit qoyuluşu isə 2 mlrd. 826 mln. manat təşkil edib. Bu isə 2020-ci ilin mart ayına nisbətən 8.4% çoxdur. Dövlət banklarının kredit qoyuluşundakı xüsusi çəkisi isə 16.7%-dən 18.3%-ə qalxıb.

Vətən müharibəsi qəhrəmanları güzəştli ipoteka kreditindən istifadə edə biləcəklər

Güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malik şəxslərin əhatə dairəsi genişləndirilir.

Bu, Prezident İlham Əliyevin imzaladığı fərmanla "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda əksini tapıb.

Beləliklə, Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı (özü, əri/arvadı, övladları) güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malik olacaqdır.

Sənayedə qeyri-dövlət sektorunun payı 84,5 faiz olub

Cari ilin yanvar-mart aylarında paytaxt sənayesində istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 8,8 milyard manat təşkil edib.

Sənaye məhsulunun 77,6 faizi mədənçıxarma, 18,6 faizi emal, 3,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Sənayedə qeyri-dövlət sektorunun payı 84,5 faiz təşkil edib. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 89,9 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 10,1 faiz olub. İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 340,6 milyon manatlıq hazır məhsul ehtiyatı olub. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 84,3 milyon manat məbləğində digər məhsullar da mövcud olub.

Paytaxtın ictimai iaşə dövriyyəsi azalıb

Birinci rübdə paytaxtın ictimai iaşə dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 55,5 faiz azalaraq 84,6 milyon manat olub.

Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumata istinadla xəbər verilir ki, hüquqi şəxslər üzrə dövriyyə 2020-ci ilin yanvar-mart ayları ilə müqayisədə 40,4 faiz azalaraq 63 milyon manat təşkil edib.



Azercell ilk Onlayn Qadın Festivalının rəqəmsal tərəfdaşıdır

Mayın 6-8-də Azərbaycanda ilk dəfə olaraq "Azercell Telekom" MMC-nin rəqəmsal tərəfdaşlığı ilə Onlayn Qadın Festivalı baş tutacaq. Qadınların müxtəlif sahələr üzrə maariflənməsinə imkan yaradacaq toplantı http://qadinfest.az/ platforması üzərindən həyata keçiriləcək.

İlk Onlayn Qadın Festivalında xanımları maraqlandıracaq çoxşaxəli mövzular müzakirəyə çıxarılacaq. Üç gün ərzində onlayn platforma üzərindən karyera, təhsil, sağlamlıq, gözəllik, psixologiya, uşaqlarla davranış və s. kimi mövzular barədə tanınmış peşəkar mütəxəssislərin canlı çıxışı baş tutacaq. Eyni zamanda, yoqa, fitness, pilates, rəsm, mətbəx və s. sahələrində master-klasslar təşkil olunacaq. Yerli və beynəlxalq spikerlərin çıxış edəcəyi festivalda özünü inkişaf, qadınların hüquqlarının qorunması, sosial və digər məsələlər də gündəmdə olacaq. Festivalın hər günü isə tanınmış və sevilən ifaçıların çıxışı ilə başa çatacaq.

Azercell bu maraqlı festival zamanı canlı yayımların keyfiyyətli və sürətli internet vasitəsilə ötürülməsinə nəzarət edəcək. Festival boyunca http://qadinfest.az/ saytının ana səhifəsinə Azercell-in brendi ilə onlayn köşk yerləşdiriləcək və buradan birbaşa mobil operatorun saytına keçid etmək mümkün olacaq.

Festivalın ən maraqlı məqamlarından biri də sual-cavab sessiyasının keçirilməsidir. Belə ki, tədbir zamanı təşkil olunacaq viktorinada sualların hamısına düzgün cavab verən iştirakçılara müxtəlif qiymətli hədiyyələr təqdim olunacaq. Festivalın rəqəmsal tərəfdaşı olan "Azercell Telekom" MMC də öz tərəfindən viktorina qaliblərindən birinə iPhone SE smartfonunu hədiyyə edəcək.

Azercell Biznes yenilənmiş "Biznesim" tarif planlarını və "Biznesim Klubu" loyallıq proqramını təqdim edir!

Lider mobil operator korporativ müştərilərinə yüksəksürətli mobil internet və limitsiz şirkətdaxili zənglər ilə yanaşı, rabitə xərclərinə xüsusi endirimlər və hədiyyə smartfonlardan yararlanmaq imkanı verir.

Ölkədə biznes ekosisteminin inkişafına dəstək olmaq məqsədi ilə Azercell Biznes abunəçilərinə və yeni müştərilərinə yenilənmiş "Biznesim" tarif paketlərini təklif edir. Əlçatan və sərbəst ünsiyyət üçün sərhədsiz imkanlar açan "Biznesim" tarifləri indi daha da müştəri yönümlüdür. Hər bir abunəçinin rabitə ehtiyaclarını qarşılamağı hədəfləyən bu tariflər ölkədəxili dəqiqələrdən, limitsiz korporativ zənglərdən və 4G yüksəksürətli mobil internetdən yararlanmaq üçün ən sərfəli şərtlər yaradır.

Biznesim tarif paketləri ilə yanaşı, Azercell Biznes öz korporativ müştərilərini yeni istifadəyə verilmiş "Biznesim Klubu"na dəvət edir. "Biznesim Klubu"nun üzvləri "Biznesim Loyallıq" proqramı ilə yanaşı, bir sıra digər üstünlüklərdən yararlana bilərlər. Belə ki, bu proqram çərçivəsində müştərilər rabitə xərclərinə endirimlər, hədiyyə telefonlar, Azercell Akademiyasında unikal təlimlər, korporativ tədbirlərə dəvət və digər eksklüziv təkliflər əldə edəcək.

"Azercell Telekom" MMC-nin Korporativ Seqment Biznes strukturunun B2B Məhsul Strategiyası və İdarə Edilməsi şöbəsinin rəhbəri Nicat Əliyev bildirdi: "Ötən il ərzində bizim əsas missiyamız ən qabaqcıl və innovativ həllərimiz ilə müştərilərimizin rəqəmsal transformasiyasına dəstək olmaq idi. Pandemiya dövründə biznes seqmentinin rəqəmsal texnologiyalara uğurlu keçidini təmin etmək məqsədi ilə biz "Biznesim Veb" həllini, eləcə də sürətli internetdən faydalanmaq imkanı verən "GigaMax" limitsiz internet paketlərini yerli bazara gətirdik. Öz növbəsində, yenilənmiş "Biznesim" tarif planları abunəçilərimizi rahat, etibarlı, əlavə xərclər yaratmayan və təhlükəsiz kommunikasiya xidmətləri ilə təmin edir. Bu tarif planları sayəsində müştərilərimiz gündəlik kommunikasiya və rabitə ehtiyaclarının idarə olunmasına əlavə vaxt və resurslar sərf etməyəcək. Bu üstünlükdən faydalanaraq abunəçilərimiz bizneslərinin inkişafına daha çox diqqət ayırıb müştərilərinə yüksək xidmət göstərməyə davam edə biləcəklər. Mən inanıram ki, yeni "Biznesim" tarif planlarımız çərçivəsində müştərilərimiz ölkənin istənilən yerində effektiv və rahat fəaliyyət üstünlüyündən yararlanacaqlar".

"Biznesim" tarif paketləri və "Biznesim Klubu" barədə əlavə məlumatı https://www.azercell.com/az/corporate.html səhifəsində əldə edə bilərsiniz.

"TikTok"da problemlər yaranıb

Dünyanın bir sıra ölkələrində "TikTok" sosial şəbəkəsinin işində problemlər müşahidə olunur.

Məlumata görə, nasazlıqlar ABŞ-ın şərq sahili üzrə yaşayış məntəqələrində yerli vaxtla saat 10:37-də müşahidə edilməyə başlanıb. Problemlərdən ən çox ABŞ, Böyük Britaniya, Almaniya və Fransa istifadəçiləri şikayət edirlər. Amerika istifadəçilərinin 74 faizi videolara baxışda problemlərin olduğunu, 18 faiz istifadəçi öz hesabına girə bilmədiyini, daha 7 faiz istifadəçi isə sosial şəbəkədə faylları paylaşa bilmədiyini bildirir.

2018-ci ilin ortalarında fəaliyyətə başlamış Çinin "TikTok" sosial şəbəkəsi videoçarxlar yükləməyə imkan verir. Bu sosial şəbəkə populyarlığına görə yalnız feysbuk və instaqramdan geri qalır.

"Biləcəri Texniki Xidmət" ASC-nin səhmdarlarının nəzərinə!

2021-ci il iyunun 30-u saat 11.00-da səhmdarların növbəti illik ümumi yığıncağı onlayn qaydada 055-343-79-69 WhatsApp nömrəsi ilə keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2020-ci ilin hesabatı.

2. Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

Ünvan: Bakı, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Rəşid İsmayılov küçəsi 100.

ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Respublikasının Gənclər və İdman naziri
AZAD RƏHİMOVUN
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«İqtisadiyyat» qəzeti və İqtisadçılar İttifaqı Azərbaycan Respublikasının Gənclər və İdman naziri
AZAD RƏHİMOVUN
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Akif Musayev, Vahid Novruzov, Ədalət Muradov, Qüdrət Kərimov, Elşən Hacızadə, Süleyman Qasımov, Mirqasım Vahabov, Bəyalı Ataşov, Məiş Əhmədov, Aydın Hüseynov, Rəsul Balayev, Müşfiq Atakişiyev, Zahid Məmmədov, Aytən Səmədzadə, Elşad Səmədzadə

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500